*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*17 iyul 2023-cü il tarixli 3-29/3-2-448F/2023 nömrəli*
*əmri ilə təsdiq edilmişdir*

**2023/2024-cü tədris ili üzrə dövlət məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu ilə əlaqədar bəzi məsələlər barədə**

**ƏMR**

2023/2024-cü tədris ili üzrə dövlət məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu ilə əlaqədar zəruri tədbirlərin görülməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. 2023/2024-cü tədris ili üzrə dövlət məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatı aparılmaqla **bq.edu.az** elektron sənəd qəbulu sistemi vasitəsilə həyata keçirilsin.

2. "2023/2024-cü tədris ili üzrə dövlət məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunun elektron qaydada aparılmasına dair Təlimat" təsdiq edilsin (əlavə olunur).

3. Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu üçün valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatına 25 iyul, təhsil müəssisəsinin seçiminə isə 1 avqust 2023-cü il tarixlərdə başlanılsın.

4. Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, regional təhsil idarələrinə tapşırılsın ki:

4.1. 2023/2024-cü tədris ili üzrə məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunun elektron qaydada aparılması üçün boş yerlərin müəyyən olunmasını, proqnozların hazırlanmasını və bu əmrin 2-ci hissəsi ilə təsdiq edilmiş Təlimata uyğun olaraq, ilk növbədə qəbul hüququ olan uşaqlar barədə məlumatların emal edilib təsdiq edilməsini;

4.2. məktəbəqədər təhsil müəssisələrində müvafiq təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsini;

4.3. məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunun elektron sistem vasitəsilə (bq.edu.az) həyata keçirildiyini nəzərə alaraq, valideynlərin (digər qanuni nümayəndələrin) bu barədə maarifləndirilməsini təmin etsinlər.

5. Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsi (Elnur Əliyev) məktəbəqədər təhsil müəssisələrinə uşaq qəbulu prosesinin gedişatı ilə bağlı cari ilin sentyabr ayı ərzində iki dəfə, sonrakı aylarda isə ayda bir dəfə olmaqla müvafiq hesabatı rəhbərliyə təqdim etsin.

6. Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsi (Elnur Əliyev), Hüquq şöbəsi (Səbuhi Mahmudov) məktəbəqədər təhsil müəssisələrinə qəbul prosesinin təkmilləşdirilməsi ilə bağlı mövcud hüquqi aktlarda müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təklifləri hazırlayaraq 1 ay müddətində rəhbərliyə təqdim etsin.

7. Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (Vüsal Xanlarov) bu əmrin 2-ci hissəsi ilə təsdiq edilmiş Təlimata uyğun olaraq, dövlət məktəbəqədər təhsil müəssisələrinə uşaqların elektron sistem vasitəsilə qəbulu üçün proqram təminatı ilə bağlı lazımi tədbirlərin icrasını həyata keçirsin.

8. Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsi (Elnur Əliyev) və İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bütün kommunikasiya kanalları vasitəsilə daxil olan vətəndaş müraciətlərinin çevik və operativ cavablandırılmasını təmin etmək məqsədilə zəruri tədbirlər görsünlər.

9. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin surətinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, regional təhsil idarələrinə və Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

10. İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu ilə bağlı ictimaiyyətin məlumatlandırılmasını, bu əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını, Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

11. Əmrin icrasına nəzarət nazir müavini Həsən Həsənliyə həvalə olunsun.

**Emin Əmrullayev**